**Azərbaycan.** - 2024.- 12 noyabr. - № 248. - S. 10.

# Azərbaycan nümunəsi

***COP29-a layiqli evsahibliyi ölkəmizin növbəti beynəlxalq nailiyyəti kimi tarixə yazılacaq***

**Yasəmən Musayeva**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Bakıda artıq öz işinə başlayıb. Dünyanın dörd bir yanından gələn onminlərlə insan qlobal iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılması, onunla effektiv mübarizə aparılması üçün Azərbaycanın paytaxtına toplaşaraq çözüm arayır, vacib təkliflər irəli sürür, çağırışlar edirlər.

Qlobal toplantının fonunda diqqətçəkən mühüm məqamlardan biri isə, heç şübhəsiz, COP kimi beynəlxalq miqyaslı böyük tədbirə ölkəmizin uğurla evsahibliyi etməsidir. Amma qonaqlarının sayı baxımından dünyanın ən böyük tədbiri olan COP29-a qədər də Azərbaycanın neçə-neçə dünyamiqyaslı tədbirə layiqincə evsahibliyi etməsini göz önünə gətirdikdə bunun heç də təsadüfi olmadığını görürük.

## Dünyanın hər yerindən görünən Azərbaycan

Hələ illər öncədən bu cür kütləvi tədbirləri keçirmək təcrübəsi olan Azərbaycan hər zaman ortaya yaxşı nümunə qoyub. İstər siyasi, iqtisadi, istərsə də humanitar olsun, fərqi yoxdur, həmişə keçirdiyi tədbirlər ideal formada həyata keçirilib. Yüksək səviyyədə təşkilatçılığı, nümunəvi evsahibliyi ilə hər zaman seçilən ölkəmiz qonaqpərvərliyi, insanlarının mehribanlığı, gülərüzlülüyü ilə də qonaqlarının yaddaşında unudulmaz iz buraxıb.

Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Avroviziya" Mahnı Müsabiqəsi, eləcə də Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə bu çərçivədə ölkəmizdə həyata keçirilən SPECA-nın Zirvə görüşü, Beynəlxalq Astronavtika Konqresi kimi mühüm tədbirlər də bu qəbildəndir.

Respublikamız "Avroviziya-2012" Mahnı Müsabiqəsi kimi möhtəşəm musiqi yarışmasını, ardınca Birinci Avropa Oyunlarını yüksək təşkilatçılıqla keçirərək beynəlxalq aləmdə nüfuz sahibi oldu. Azərbaycan keçirdiyi bu tədbirlər zamanı ortaya qoyduğu mükəmməl nümunələrlə dünyanın hər yerindən aydın göründü. Hətta ölkəmizə qarşı qərəzli mövqedə olanlar belə həmin vaxt nümayiş etdirilən yüksək təşkilatçılığı, qonaqpərvərliyi, respublikamızın müasirliyini, gözəlliyini etiraf etməli oldular. Ən əsası, Azərbaycanın multikultural, tolerant mühiti tam mübaliğəsiz demək olar ki, ölkəmizə gələn qonaqların hər birini heyrətləndirdi. Çünki respublikamızda min illərdir var olan multikultural, tolerantlıq mühitinə hazırkı dövrdə dünyanın heç bir yerində rast gəlmək mümkün deyil.

## Yüksək təşkilatçılıq

2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi isə Azərbaycanın dünyadakı nüfuzlu mövqeyinin daha bir ifadəsi oldu. Möhtəşəm formada təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi həm də Azərbaycanın bütün sahələr üzrə xarici ölkələrdə təqdimatı, ölkəmiz haqqında məlumatların çatdırılması üçün mühüm platforma oldu.

Adıçəkilən beynəlxalq səviyyəli tədbirlərin təşkilində Azərbaycanın Birinci vitse-prezidenti, ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. İstər Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, istərsə də "Avroviziya" Mahnı Müsabiqəsi olsun, Birinci xanım Mehriban Əliyevanın həmin tədbirlərin Təşkilat Komitəsinə rəhbərliyi sayəsində ən yüksək səviyyədə keçirilib.

Hazırda isə Azərbaycan COP29-un timsalında daha bir dünyamiqyaslı tədbirə evsahibliyi edir.

Vurğulayaq ki, respublikamız ətraf mühitin mühafizəsinə və iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması məsələlərinə xüsusi önəm verir və bu istiqamətdə mühüm işlər görür. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası üzrə yekdil qərarla ölkəmizin ev sahibi seçilməsi də bunun bariz göstəricisidir.

Əminliklə demək olar ki, onminlərlə əcnəbi qonağın iştirak etdiyi bu nəhəng tədbiri də ölkəmiz yüksək səviyyədə keçirəcək, mükəmməl evsahibliyini, qonaqpərvərliyini dünyaya nümayiş etdirərək nümunə göstərəcək. Bir sözlə, Azərbaycan COP29-a layiqli evsahibliyi ilə növbəti beynəlxalq nailiyyətini tarixə həkk edəcək.